

Telman Gülər Təravət

# ŞAİR DOĞULMUŞAM

485. 17.05.2014

04.02.13
11.04.2013
05.2014

13522/1.

**Telman Gülər Təravət**

# ŞAİR DOĞULMUŞAM

AB Quba rayon

"Şərq-Qərb"
Bakı – 2011

*Müəllif kitabın nəşrinə maddi və mənəvi köməyə görə millət vəkili İlham Əliyevə, Xaçmaz rayon İcra Hakimiyyətinə dərin minnətdarlığını bildirir.*

Redaktoru və ön sözün müəllifi: **Ramiz Qusarçaylı**

**Telman Gülər Təravət. Şair doğulmuşam.**
Bakı, "Şərq-Qərb" Nəşriyyat evi, 2011, 104 səh.

**ISBN 978-9952-34-629-9**

© Telman Gülər Təravət, 2011
© "Şərq-Qərb" Nəşriyyat evi, 2011

# ÖN SÖZ

*Yeddi sözün şairinə*
*yetmiş yeddi kəlmə*

Söz-söz, misra-misra zənginləşən Quba ədəbi mühitinə öz bənzərsiz səsi, poetik nəfəsi ilə adını həkk eləyən Telman Təravətin yenicə çapa hazırlanan kitabını vərəqlədikcə əyalətin künc-bucağından boy verən, fəqət, respublika civarında həqiqi poeziya mehi əsdirə bilən ürək çırpıntılarına bir daha sayğı duymağa başladım. Bu maraqlı söz sahibinin, bu qərib və qəribliyinin içində doğmalıq bəsləyən söz adamının könül duyğularının klassik irsimizdən qaynaqlandığı, eyni zamanda bu qanaqda möhkəmləndiyi mənzum hekayələrinin ruhundakı mayanın saflığına inamım artdı.

Şeir boyda müqəddəs varlığın nəhəngliyinə baş əymək niyyəti, həm də bu əbədi təzimin damarındakı qürur hissi hər şairin yaradıcılığına xas olan nəsnə deyil, böyük sözün, ulu sözün xilqətinə ürək tutmaq və bu ədəbi xidmətin sonunda xəcalət çətirində daldalanmamaq hər müəllifə müyəssər olmur. Poeziya, özü də XXI əsrin poeziyası çox zalım və əzabkeş amilləri ilə şairin sinəsinə çökür, onun ömrünü, gününü düşüncə tırtılları ilə şumlayır, fikir daşları ilə döyəcləyir, söz sahibinə nəsib olan miqdarda fəlsəfi yükün altında xıncım-xıncım xıncımlanır. Bu ağırlığın təsiri altında dözə-dözə yaşamaq, yaşaya-yaşaya yazıb-yaratmaq, yarada-yarada şeir dəyirmanının pərləri içində üyüdüb unu un, kəpəyi kəpək çıxarmaq reallığı mövcuddur ki, bu sərt həqiqəti duya-duya qələmə sarılmaq böyük ürək istəyir adamdan, əks halda isə...

Telmanın kitabını vərəqlədikcə yadıma Ömər Xəyyamın bir kəlamı düşdü: "Ədalət kainatın ruhudur". Bir də onu düşündüm ki, bu gün Kainatın ədalət ruhunu nə günə qoyublar. Dünyada ədalət deyilən şey ölüm ayağındadı, can verdiyi yer isə İraqdı, Əfqanıstandı, Fələstindi, Çeçenistandı, bəlkə də elə Qarabağ timsalında buralardı... Kainatın ruhu şikəst olan dövrün şairi olmaq əzabı elə şairlərə nəsib olan səadətdir.

Yoxsa Telman yazmazdı:

*Ruhum məndən əvvəl Tanrı yanında,*
*Ruhum məndən əvvəl uçub göylərə.*

Yaxud:

*Şair doğulmuşam göylərin altda,*
*Göydə uçan ruhum gəzdirir məni.*

Göydə uçan ruhun gəzdirdiyi şairin keçdiyi həyat cığırlarına nəzər salaq:

1956-cı ilin 7 mayında dünyaya göz açır. Sinif jurnalında adı 7-ci olan, 7-ci sinifdə ilk şeirini qələmə alan, eyni zamanda ürəyində sevginin ilk toxumları cücərməyə başlayan, futbol komandasının 7 nömrəli oyunçusu kimi tanınan, 7 kitab şeir yazan, 7 şeirin kitabını hazırlayan, özünü 7 sözün şairi hesab eləyən söz adamı...

Yeddi rəqəminin rəngarəng çalarları, müqəddəs məna bildirən formaları Telmanın taleyinə öz pozulmaz izlərini nəqş edib. Bəlkə elə buna görədir ki, Telmanın bu kitabı da yeddi fəsildən ibarətdir.

Telmanın imza qəribəliyi də var. Dünyasını dəyişən qızının adını özünə təxəllüs seçən müəllif Gülər adı ilə şeir ağlayır sanki... Və bu ağlayan-güləyən müəllifin şair doğulanların duyulmamaq dərdini nəzmə çəkməsi təəccüb doğurmur...

*Yanıram demədi heç vaxt yananlar,*
*Hamıya açılmır şeirli anlar,*
*Məni başa düşməz şair olanlar,*
*Şair doğulanlar məni tez anlar.*

Müəllif anlamaq probleminə toxunan kimi ani olaraq şair doğulanların "şair olanlar"dan nələr çəkdiyini belə təsvir edir:

*Şeirimdə yol tapdı yolun azan da,*
*Allahsız yazmadım şeir yazanda,*
*Gəlib ayağımın altın qazan da,*
*Hərlənib yolumdan izimdən çıxır.*





Telman imzası hələ on illər öncə xalq şairləri Fikrət Qocanın və Sabir Rüstəmxanlının diqqətini cəlb etmiş, onlar bu şair barədə öz fikirlərini belə söyləmişlər. Fikrət Qoca yazırdı: Telmanın şeirlərində dilin rəvanlığı, səmimiyyət sübut edir ki, bu ötəri həvəs deyil. Bir də dünən əlinə qələm almayıb, şeir yazanlar yaxşı bilir ki, şeirin adicə sözlərini düzməyi öyrənincə ömürdən illər gəlib keçir.

Telmanın şeirlərində zəhmətə qatlaşmaqla istedad yanaşı durub. Sabir Rüstəmxanlı isə Telmanın şeirləri barədə belə deyirdi: Köksündə hərarətli ürək yaşadan Telman sözün həqiqi mənasında əsl şairdir.

Bu deyilən fikirlər müəllifin formalizmdən uzaq olduğu, novatorluq keyfiyyətinə sadiq qalaraq lakonik şeirlər ustası olduğunu təsdiqləyir. Elə şairin özü də:

*Mən beləyəm bu dünyada,*
*Sevinc əkib qəm dərirəm.*
*Özüm gözə görünmürəm,*
*Ürəyimi göndərirəm.*

deyərək öz poetik qabiliyyətini təsdiq edir. Bu təsdiq üçün çox nümunələr göstərmək olar. Məsələn:

*Söz deyən binədən söz deyir elə,*
*Hər şairəm deyən söz deyə bilmir.*

və ya

*Şairlik kef deyil, əyləncə deyil,*
*Hər misra üstündə can verir şair.*

və ya

*Adamından, ağacından,*
*Tuturam, dururam, Vətən.*
*Bütün ömrümü, günümü*
*Səninlə qururam, Vətən*

Belə misalların sayını çox artırmaq olar. Əsas olanı bu deyil, əsas olanı bir söz adamının sözlə intim davranışına ləyaqətlə

ürək açması, onu ləyaqətlə qorunması, ömür-gün bahasına da olsa söz atəşində od tutub, yanıb qovrulmağa müqəddəs əzab kimi baxmasıdır... Bunu Telman çox gözəl bilir, bildiyi üçün də yazır:

*Hər gələn sabaha ümidlə baxdım,*
*İnadım döyüldü küləklərində.*
*Yeddi təravətli söz söyləmişəm*
*Yaşadar sevənlər ürəklərində*

Mən də qələminə sayğı duyduğum şair qardaşımın söylədiyi yeddi təravətli sözün göylərin və yerlərin yeddi qatında, yeddi rəngində və yeddi möcüzəsində yaşamasını arzulayıram, eyni zamanda "Ay işığı" və "Ulduzlar" ədəbi məclislərinin uğurlarında yenə də öz imzası ilə poetik töhfələrini verəcəyinə ümid edirəm.

**Ramiz Qusarçaylı**
*AYB Quba bölməsinin və*
*"Ay işığı" ədəbi məclisinin sədri*



# Ürəkdir sevdirən...

## Mənim şairliyim

Söz deyən binədən söz deyir elə,
Hər şairəm deyən, söz deyə bilmir.
Bir borc yüz fikri ödəyir bəzən
Yüz fikir bir borcu ödəyə bilmir.

Hər gələn sabaha ümidlə baxdım,
İnadım döyündü küləklərində.
Yeddi təravətli söz söyləmişəm
Yaşadar sevənlər ürəklərində.

Qəlbimi yandıran laqeydlikdi
Gahdan boşalıram, gahdan doluram.
Mənim şairliyim bir şəhidlikdi
Hər şeir yazanda şəhid oluram...

*2008*

## Möcüzə

Şair yaradanla daim təmasda,
Şair yaradanla üz-üzə olur.
Baxanda elə-belə, adidi hər söz
Söz şeirə dönəndə möcüzə olur...

*8 avqust, 2008*

## Şeir kitabım

Hər bir şeir, tanrı verən verginin,
İçimdə yaşanmış görünməz səsi.
Şeir kitabım özümü təsdiqim
Şairliyin şəxsiyyət vəsiqəsi...

*3 iyun, 2008*

## Şerim

İtdi bir gözəlin, itməyi ilə,
İtdi qayğılara qarışan şerim.
Çoxuna pis gəldi, acı göründü
Zamanın alnında qırışan şerim...

*2006*





## Ürəkdir sevdirən

Ürək görməyəni göz görə bilməz,
İlham badəsini içər ürəkdən.
Hər şey öz havası, təbiətilə
Necə var eləcə keçər ürəkdən.

Ürəkdən vurula, sutək durula,
Ürəyimizin şəkli üzümüzə gələr.
Bəlkə, buna görə əlimiz üzdə
Günəşin də nuru gözümüzə gələr.

Ürəkdir yaşadan bizi dünyada,
Ürəyin üstündə qurulmuşuq biz.
Nədə əbədilik qazanmışıqsa
Ona ürəyimizdən vurulmuşuq biz.

Ürəkdir sevdirən, nifrət etdirən,
Ürəksiz ayağın bir addım atmaz.
Nəyi edəcəksən, ürəkli elə
Ürəkdən çıxmayan ürəyə yatmaz...

## 7 sözün şairiyəm

Ürəyimin dağ başını,
Bir siqar tüstüsü qədər
Duman alıb.
Ürəyimin qatarında,
Qatar-qatar fikirlərim
Donub qalıb.
7 kitab bağlamışam,
7 şeir fikrimdədi,
7-sini düşünürəm,
7-sini çap etmişəm –
7-sini yazmamışam,
Hələ qalıb,
7 şeir mənə,
Şair adı verib
İşə salıb...
Dünyanın özüm boyda
Sehriyəm, sirriyəm,

7 şeirin müəllifi –
7 sözün şairiyəm...

*2010*





## Fikrimdə bir şair var...

Beynimdə bir fikir var,
Şeir olmaq istəmir.
İçimdə nəsə bitib
Hissə çevrilə bilmir.

Qapayıbdır üzünü
Qapayıb o əliylə...
Nə qədər şeir desə də
Yenə ürəkdən demir?..
Fikrimdə bir şeir var
Şair olmaq istəmir.

Ulduzları səmadan
Birər-birər dərərdim,
Fikrimdəki şairtək –
Olsaydı, nəydi dərdim...

Şeirlərim çoxuna
Görünsə də sirr kimi.
Yaza bilmirəm nədən
Oh, o şair kimi...

Divanədir güllərin,
Lalələrin əlindən.
O bir lalə günlünün,
Çalınıbdı dilindən...

...Nə qədər şeir desə də,
Yenə ürəkdən demir.
Fikrimdə bir şair var,
Şair olmaq istəmir!?..

*18 noyabr, 1981*

## Ömür başdan-başa...

Alnına nə yazılıb, o da olacaq,
Yüz çarpış, yüz vuruş, dumanla, çənlə.
Ömür başdan-başa bir etirafdır –
Üz-üzə dayansan, daxili mənlə...

*2008*

## 77... 7... 7...

77 dolaması var şeirin,
77 cığırında azmışam.
77 bulanması var şerin
7-7 yeriyərək yazmışam...

*1981*





## Sənə qurban

Məndən küsüb gedən gözəl,
Küsmə, bu can sənə qurban.
Sevmədiyim bir an yoxmuş
Sevgili an sənə qurban.

Gizli olan sevgi əziz,
Sevgi olan ürək dəniz,
Sözümü tut laləbəniz
Bu sevgiyə səndə bəyan.

Dolu bədən, boyu bəstə,
Fikrindən olmuşam xəstə,
Bir dön mənə, bax ahəstə
Yanana yan, sənə qurban.

Tanrı yazıb bu yazını,
Gəl itirmə sən yazını,
Gülüm, az eylə nazını
Öldü Telman, sənə qurban.

*19 yanvar, 1994*

## Qoşa işıq

Otağa lampa saldılar,
Zülməti boğdu işıq.
Evə gəlin gətirdilər
Artdı evdə yaraşıq.

Qoşa alışmışdı işıq,
Həyat-sevgi qarışıq.
Lampa otağa yaraşıq,
Gəlin evə yaraşıq...

*1982*



13522/1

# *Vətən torpağında, xalqın içində*

AB | Quba rayon MKS

## Vətən torpağında, xalqın içində

Yoxdu sakitliyim, yoxdu dincliyim,
Xalqın dincliyiçün eşikdəyəm mən.
Vətən torpağında, xalqın içində
Həmişə qanuni keşikdəyəm mən.

Xalqın polisiyəm, bu adım ilə,
Qürur hissi ilə öyünürəm mən.
Vətən sinəsində bir ürək kimi
Həmişə narahat görünürəm mən.

Yaxşı bilirəm ki, dövlət sirrini,
Daima hifz edib, saxlamalıyam.
Əsil polis kimi tanınmaq üçün,
Özümü çətində yoxlamalıyam.

Yoxdu sakitliyim, yoxdu dincliyim,
Xalqın dincliyiçün keşikdəyəm mən.
Vətən torpağında, xalqın içində
Həmişə qanuni keşikdəyəm mən.

## Əsgər libasını soyunan kimi

Əsgər libasını soyunan kimi,
Polis libasını geyinən oldum.
Həyatda bu çətin, şərəfli işlə
Bütün ömrü boyu öyünən oldum.

Qoymadım saflığa ləkə yaxalar,
Qoymadım düzlüyə pislik əl çala.
Qoymadım gözəlliyə əyri baxalar
Mərd yerinə keçib, namərdlər qala.

Qoymadım çiçəklər, güllər əzilə,
Qoymadım könülə dəyən söz olsun.
Axtardım canini isti iz ilə
Çalışdım ki, hamı təmiz, düz olsun.

Qorudum daima dövləti, xalqı,
Həmişə işimi yenidən qurdum.
Ömrünü Vətənə həsr edənlərin
Önündə adladım, önündə durdum.

Əsgər libasını soyunan kimi
Polis libasını geyinən oldum,
Həyatda bu çətin, şərəfli işlə
Bütün ömrüm boyu öyünən oldum.



## Polis poqonları

Poqon daşıyanda, fərəh duymuşuq,
Göztək qorumuşuq daim onları,
Doğrusu, bir zümrüd quşu bilmişik,
Çiynimizə qonan bu poqonları.

Sevinməyə dəyər, ona görə ki,
Xalq polisi kimi bir ad bizdədir.
Haqsıza, caniyə, sancılan oxtək
Polis poqonları çiynimizdədir...

*1980*

## Mən əsgərəm indi, ana

Cəsarətdi hərbi xidmət
Baxmayıram qara-dona.
Dosta-tanışa yazdığım
Məktublarda gəlmir sana,
Mən əsgərəm indi, ana.

Keşik çəkirsən yuxuma,
Öz yuxunda yana-yana.
Şirin laylan qulağımdan.
Bircə an da getməz yana.
Mən əsgərəm indi, ana –
Mən əsgərəm indi, ana...

*1977*

## Anama

Elə ki anamı düşünürəm mən,
Elə bil, dağ çayı axır sinəmdən.
Elə olur bəzən uşaqlaşıram,
Anamın hər zaman beşik başında
Dediyi laylalar düşür yadıma.
Hayanda olsam da, onsuz olmadım,
Gül adı solmayan bahardır mənə.
Vətən sözü ilə, əkizdir adı
Anam bir əbədi vüqardır mənə.
Nə qədər ki sağam mən kainatda
Qızıl qanımladır anam həyatda...

*1973*

## Qəlbim

"Sevirəm" sözüylə kiridi qəlbim,
Sevgiylə hər zaman diridi qəlbim...
– Qəlbimin ən əziz yeridi Vətən,
Vətənin ən təmiz yeridi qəlbim...

*2010*





## Ən qorxulusu...

Sevginin qədrini nə bilir naşı,
Başqadır bu sevgi hissi, doğrusu.
Sevməmək, bir elə qorxulu deyil –
Eşqə xəyanətdir ən qorxulusu...

*2010*

## Deyil...

Sevgisiz gün, gün deyil,
İstisiz gün, gün deyil,
Sən gül ol, mən tikanın
Tikansız gül, gül deyil...

*2000*

## Mən ömrümə bilə-bilə...

Böyüyə bilməzsən, ömür,
Bulud verdin göyünə sən.
Bulud dalında günəşin
Bu nurla nə öyünəsən?!

Böyüyə bilməzsən, ömür,
Böyüyə bilməzsən daha.
Sevməsən, dura bilməzsən
Sevəndə düşürsən günaha.

Böyüyə bilməzsən, ömür,
Lalə xalın közərməsə.
İlham pərini görməzsən,
İçinə işıq gəlməsə.

Böyüyə bilməzsən, ömür,
Mən səni belə yaşadım.
Xeyri yox laləsiz günü
Bir-bir mən səndən boşadım.

Hayıf, hayıf o güllərə,
Əlim qıyıb o güllərə.
Mən səni qoruyammadım
Saldım nəhsə, düyünlərə.

Mən ömrümə bilə-bilə,
Öz ömrüm kimi baxmadım.
Ömrümün o zirvə vaxtı
Nədən bir güllə sıxmadım.

*1993*





## Yaşamaq çətindi

O qədər düz ol ki özün özünçün,
Tapılmaz sözünə bir qulaq asan.
Nədənsə, birtəhər köklənib həyat,
Yaşamaq çətindi, girlənmək asan.

Bu torpaq üstündə yaşamaz dilin,
Bizə kim öyrədər, kim başa salar,
Hər görən laləni, dərə də bilməz
Dərəndə əlində saplağı qalar.

Girlənir hər adam, bir cür girlənir,
Girlənir, başını salıb aşağı –
Başına düşəcək daşı görməyir
Özünə arxa bilir qayanı-dağı.

Girlənmək əlindən həyat kirlənir,
Gedir hər bir şeyin təmizlik çağı...
Bəxti at üstədi girlənənlərin
Həm arxası kəsir, həm də qabağı.

Baxıram, görürəm yanır ürəyim,
Sözün çatacaqmı görən qanana.
Hələ rast gəlmədim, keçdi ömür də
Sözüylə işində birlik olana.

O qədər düz ol ki özün özünçün,
Tapılmaz sözünə bir qulaq asan.
Nədənsə, birtəhər köklənib həyat
Yaşamaq çətindi, girlənmək asan...

*2009*

## Sual

Nə üçün şeirimiz eşidilməyir –
Nədən şeirimizin çıxmayır səsi...
Yoxsa çəkilibdir şeirimiz üstdən
Müqəddəs ilahi, Allah kölgəsi.

Niyə dediyimiz şeirin çıxmayır,
Niyə yapışmayır sözümüz insana.
Niyə bəs təbimiz sözə baxmayır
Düşməyir sözümüz iliyə, qana...

Özünü gizlədir, gözə görünmür,
O göylər balası şeir dediyimiz.
Yerəmi giribdir, göyəmi çıxıb
Yoxsa xəcalətdi şairliyimiz.

Niyə istedada qiymət qoyulmur
Ölüm tanıtdırır... bu istedaddır...
Niyə şeirimizdə həyat duyulmur –
Niyə təzə nəfəs şeirə yaddır...

Nə üçün şeirimiz eşidilməyir
Nədən şeirimizin çıxmayır səsi.
Yoxsa çəkilibdir şeirimiz üstdən
Müqəddəs ilahi, Allah kölgəsi...

Gəl, bundan sonra da yaz-yarat, Telman,
Təravət toxumu səp şeirinə.
Ən sadə insandan alimə kimi
Düşünsün şeirini alan əlinə...

*1987*



# Kimdi bu dünyada adam?

## Kimdi bu dünyada adam?..

Kimdi bu dünyada adam,
Kim adam deyil dünyada.
Adam içində olasan,
Adam tapmayasan dünyada.

Birindən gül ətri gəlir,
Biri sataşır yüzünə.
Biri min oyundan çıxır
Biri yaşayır düzünə.

Pul əl açıb, gülən qədər,
İş görür şeytanın əli.
İndi hər şey pula baxır
Ağıllı da olur dəli.

Bəs kimdi dünyada adam,
Kim adam deyil dünyada.
Adam içində olasan
Adam tapmayasan dünyada...

*3 yanvar, 1990*

## ...7 gündü insan ömrü

Həyatda yeddi gündü,
insan ömrü,
həyatda yeddi gündən
keçə bilmir insan...

Bir təsirli gün
düşündürür,
Bir dərdli gün
ağladır.
Bir inad gün
güldürür,
Bir duyğulu gün
dəli edir.
Bir gözəl gün
sevindirir.
Bir şirin gün
yaşadır,
Bir ağır gün
öldürür...

Həyatda 7 gündü
insan ömrü.
Həyatda 7 gündən
keçə bilmir insan...

Həyatda 7 gündü
insan ömrü...

*1986*





## Naqafil iş

Kimsə baş açmadı, naqafil işdən,
Buludlardan dolu töküldü getdi.
Bu nə payızdandı, nə də ki qışdan
Bir zərif gözəllik söküldü getdi.

Çiçəklər açmışdı suya həsrətli,
Sonsuz həsrətində, axırı yoxdu.
Dənizlər durmuşdu, çaya möhnətli
Düzü, möhnətində, axarı yoxdu.

Bağlar talan oldu, bağçalar talan
Ağ yaşıla qarışdı, yaşıl da ağa.
Bahar yalan oldu, ağappaq yalan
Payızı andırır, bax sola-sağa.

Eşq elan edilib, aldadıldı qız,
Həqiqət yerinə yalan danışdı.
Öz təmiz adına bir ad aldı qız
Gizli alovlandı, gizli alışdı.

Öz ürək sözünə dönükdü oğlan,
Dönükdən tez dönər eli-obası.
Öz ilk eşqinə də sönükdü oğlan,
Uçuldu bir eşqin təzə yuvası...

Ağzıgöyçəklər də söz söylədilər,
Filankəsin qızı... eh qız olmadı.
Bir gör sən onları nə elədilər,
Filankəsin oğlu gəzdi, almadı.

Çiçək dərilmədən qəfil əzildi,
Köklər gövdəsini tuta bilmədi.
Məhəbbət dünyanı qəfil gəzirdi
Heç vaxt, adətini ata bilmədi.

Qız belə adladı, oğlan beləyə,
Dolu qüvvətləndi, dolu boşaldı.
Hər şeyə həssasdı, təbiət necə
Bir sözlə hər yanı tamam daşladı.

Qız öz taleyindən, etdi şikayət
Gəl öldür sən məni, gəl öldür Allah.
Oğlan da qəzəblə dindi, nəhayət,
Bu hirsli anımda, nə görürəm, ah...

Hər yan bir naqafil qüvvəyə qurban,
Quru dura-dura, yaş da yanırdı.
Dəhşətdi, həyatı duymasa insan
Bunu daşa desən, daş da yanardı.

Bir qəlbin dünyası uçulmuş idi,
Dünyasa sabitcə fırlanmaqdaydı.
Bir eşqin aynası, tam sınmış idi
Dünyasa sevincə boyanmaqdaydı.

Kimsə baş açmadı bu qəfil işdən,
Buludlardan dolu töküldü getdi.
Bu nə payızdandı, nə də ki qışdan,
Bir qız gözəlliyi söküldü getdi...

*26 oktyabr, 1978*





## Tapan ağıllıdı...

Mən səni itirdim,
o səni tapdı
Hicranını çəkib qurtarmışdım...
Kim səni sevsə idi,
Çətinliyə düşməyəcəkdi qəti,
Ağıldan da edəcəkdi hələ onu
Hicranı siqartək çəkilmiş
Bir qızın, vüsal dolu məhəbbəti,
Danışacaq özündən qazı-qazı...
Məni bəlkə də, heç bəyənməyəcək.
Bilməyəcək ki, sənin hicranını
Mən çəkib qurtarmışam...
Öyəcəkdi özünü hətta,
Bir neçə, özünə oxşayanın yanında
Qürrələnəcək özündən razı-razı...
Baxacağıq bu dünyada,
Ötən günə, gələn günə
O sənin yanında ola-ola,
Sən sevgiyə tamarzı?..
Mən sənin sevginlə dolu –
Sənə tamarzı...

Çəməndə açılan lalələr
Kövrəldəcək hər ikimizi.
Çəməndə açılan lalələr
Yadımıza salacaq
O əvəzsiz sevgimizi...
Eh, hələ günlərimiz
Varmış görməli.
Tapan ağıllıdı,
İtirən dəli...

*27 yanvar, 1982*

# Allahdan aşağı, məndən yuxarı...

Allahdan aşağı, məndən yuxarı,
Bir sevgi gəzirdi başımda mənim.
Allahdan aşağı, məndən yuxarı
Bir qız dayanmışdı qarşımda mənim.

Allahdan aşağı, məndən yuxarı
Bu dərə boşluğu, bu daş boşluğu,
Bu dərin boşluğu doldura bilsəm ,
O qızı qolum üstə qaldıra bilsəm ,
Qəlbinə sevgimi saldıra bilsəm,
Onda bu dünyamı sevməyə nə var –
Onda bu dünyanı sevməmək olar...

Bu dərə boşluğun, bu daş boşluğun
Düşüb bir küncünə ağlaya bilsəm,
Ağlayıb, sonra da çağlaya bilsəm...
İnamı qəlbimdə, gücü biləyimdə,
Əsiri çiynimdə saxlaya bilsəm,
Onda bu dünyanı, sevməyə nə var,
Onda bu dünyanı sevməmək olar.
Göylərin altında, ömür-gün daşıya –
Bir ana bətnindən düşüb dünyaya,
Bir qız sevgisində yaşaya-yaşaya...

*27 mart, 1983*





# Bu gecə...

Bu gecə, gecədən bir şeir aldım,
Bu gecə özümdə olmadım tamam
Bu gecə, gecəni yaman aldatdım,
Bir sevgi şerimi etməkçün tamam.

Bu gecə təbimdə kükrədi-daşdı,
Yazda coşub-daşan Qusarçay kimi.
Bu gecə təbimdə işıq da saçdı
Gündüz günəş kimi, gecə ay kimi.

Bu gecə dünyada gecə olmadı,
Bir şeir işığı tutdu aləmi.
Bu gecə təbimdə "necə" olmadı
Saxlaya bilmədim dəli qələmi...

Hər səsdə bir nəğmə, nəğmədə min səs
Bir qız su almağa bulağa gəldi?!
Sən də de, hardasan, ay oğlan, tələs
O səni görməyə baxdı dikəldi...

Ürək hökm elədi, qələm yaz dedi
Yaz dedi gənclərin məhəbbətini
Gör necə xoşbəxtdir sevib-sevənlər
Yaz dedi onların səadətini...

Oğlanın qolları üstündədi qız
Gəzirlər çəməni, çiçək qoynunu
Oğlana göz vurub gülümsəyir qız
Sıxıb qolu ilə onun boynunu...

Oğlan qolu üstə aparır qızı
Qorxur ki, itirərsə adətini
Qız hərdən dillənir, yarı narazı
Öpüşlə bəx$ edir məhəbbətini?!.

Bədəndən bədənə hərarət keçir
Atlanır qız döşü həyəcanından
Həyatda iki gənc sevilib-seçir
Dünyanın yorğunluğu çıxıb canından.

Qalıb yol üstündə, su dolu səhəng
Unudulub su da, dünyada indi –
Bulağın pıçıltı, nəğməsi ahəng
Ən kövrək çağıdı dünyanın indi.

Bu gecə, gecədən bir şeir aldım
Bu gecə özümdə olmadım tamam
Bu gecə gecəni yaman ağlatdım
Bir sevgi şeirimi elədim tamam...

*30 dekabr, 1978*





## Etiraf

Səni tanıyandan heç şən deyiləm,
Bir daha ardınca düşən deyiləm,
Sevgisiz heç nəyəm, gülşən deyiləm
Səni sevmək mənə, oturub baha,
Mən səni sevmirəm, sevmirəm daha.

Bir də bu yerlərə gələn deyiləm,
Sənin hər sözünlə gülən deyiləm,
Ölsəm də səninçün ölən deyiləm
Niyə səni sevim, batım günaha,
Mən səni sevmirəm, sevmirəm daha.

Ağlama, arxamca yetər, ağlama,
Şeirimi yadigar kəsib saxlama,
Özünü oda salıb sinə dağlama
Səninlə mənimki qalıb Allaha,
Mən səni sevmirəm, sevmirəm daha.

Mən səni bu axşam gördüm tanıdım,
Səni sevdiyimə özümü qınadım,
Rəqibimi yoxlayıb dostu sınadım,
Bu eşqin astarı özündən baha,
Mən səni sevmirəm, sevmirəm daha.

Yaxşı ki, büsbütün odlanmamışam,
İçimdə çəkmişəm, mən yanmamışam,
Yaxşı ki sənə tam aldanmamışam
Bu eşq sınaq oldu mənə sabaha,
Mən səni sevmirəm, sevmirəm daha.

*1981*

## Qoy özümüz tək yaşayaq

Allah qoy biz özümüz tək yaşayaq,
Salma bizi dilə-dişə, ilahi.
O gözəlin yoxdu burda günahı
Gəl o qızı salma işə, ilahi...

Ürəyimdə bu inadı yox elə,
Qoy deməsin o qız mənə kələkdir.
O qız ancaq sevilməkçün yaranıb
O qız elə yaranmışdan mələkdir.

Heç tapmırıq bu dərd üçün bir əlac,
Gizli-gizli alışırıq, yanırıq.
Özümüzə həsrət-həsrət boylanıb
Özümüzə baxa-baxa dayanırıq.

Allah, qoy biz özümüz tək yaşayaq,
Salma bizi dilə-dişə, ilahi.
O gözəlin yoxdu burda günahı
Gəl o qızı salma işə, ilahi...

*1993*



## Fırlanır...

Fırlanır, neynim fırlanır,
Paltarda əynim fırlanır,
Yemək-içməyim fikirdi
Fikirdən beynim fırlanır.

Mən beləyəm bu dünyada,
Əlimlə üzüm örtülü.
Adamlar keçər yanımdan
Əyni-başı ütülü.

Adamlar keçər yanımdan,
Sən məni görə bilməzsən.
Üzünə gülənlər çoxdu
Üzümə gülə bilməzsən.

Güllər içindən keçərsən,
Hər gül içimi bəzəməz.
Nə olsun ki, güldü dünya
Lalə hər gülə bənzəməz.

Mən beləyəm bu dünyada
Sevinc verib, qəm dərirəm.
Özüm gözə görünmürəm,
Ürəyimi göndərirəm.

Mən beləyəm bu dünyada,
Fırlanır, neynim fırlanır.
Yemək-içməyim fikirdi
Fikirdən beynim fırlanır...

*4 dekabr, 1989*

# Yerin var həmişə sənin ürəkdə

Kim məni sevərdi sənin yaşında,
Kim məni oxşardı, əzizləyərdi.
Əlləri qoynunda durub qapıda
Mən evə gəlincə yol gözləyərdi.

Kim məni sevərdi sənin yaşında.
Kim mənə sənintək ümid verərdi.
Kim mənə ən ağır dəqiqələrdə,
Qolumdan tutaraq yol göstərərdi.

Olub sözümüzün çəp gələn vaxtı
Düzü, küsüşərək dolaşmışıq da
Sonra uşaqlarla süfrə başında
Əvvəlkitək gülüb danışmışıq da...

Gecə gündüz kimi, ağ qara kimi,
Ömrümüz gah yaxşı, gah da pis keçib.
Adi insan kimi ömür sürmüşük
Demə, hər işimiz təqsirsiz keçib?!

Artıq qocalıram, düşür saça dən,
Gözələ baxmaqdan göz yenə doymur
Fikrimi yığsa da, duyğum-düşüncəm
Yenə ürək məni sevgisiz qoymur...





Yerin var həmişə sənin ürəkdə,
Gözlərinə qonmuş çənə borcluyam.
Uşaqlara ana, mənə qadınsan,
Ömrümün yarısın sənə borcluyam...

Kim məni sevərdi sənin yaşında,
Kim məni oxşardı, əzizləyərdi.
Əlləri qoynunda durub qapıda
Mən evə gəlincə yol gözləyərdi...

*31 mart, 1994*

## Dəniz yaxınlığında kəndimiz...

Dəniz yaxınlığında kəndimiz,
Kəndimizdə dəniz havası
Dəniz havasında biz...

Zəmilərimiz qıpqırmızı lalə
Laləlik içrə arıların oxusu...
Həyətlərdə lalə-lalə alışan təndirlər,
Təndirlərdən qalxan təzə çörək qoxusu.

Görürük, duyuruq, hiss edirik,
Sevinirik, kədərlənirik.
Bağlayır özünə bizi
Bu torpaq, bu hava, bu su...

Yaşayırıq
Dəniz yaxınlığında kəndimiz –
Kəndimizdə dəniz havası,
Dəniz havasında biz...



# *Vətən elə oğul istəyir indi*

## Vətən elə oğul istəyir indi

*2010-cu il 7 noyabr parlament seçkilərində millət vəkili seçilmiş Əliyev İlham Əlisəftər oğluna*

Vətən elə oğul istəyir indi,
Sulu siyasətdə quru görünsün.
Ayağı dəydiyi yer çiçək açsın
Hər işdə üzünün nuru görünsün.

Vətən elə oğul istəyir indi,
Sona kimi getsin tutduğu yolu.
Baxanda üzündən qürur tökülsün,
Görkəmində olsun dağlar qüruru.

Vətən belə oğul istəyir indi,
Onu öz içində daşıya bilsin.
Oğul belə Vətən istəyir indi,
Vətəni yaşadıb, yaşaya bilsin.

Vətən elə oğul istəyir indi,
Arxasında dursun dediyi sözün.
Əslinə-nəslinə nümunə olsun
Ağartsın vətənin, millətin üzün.

Vətən elə oğul istəyir indi
Bilsin qiymətini, ötən anın da –
Təəssüf qəlbində, qeyrət canında
Şəhid qanı axsın damarlarında

Vətən elə oğul istəyir indi –
Oğul belə vətən istəyir indi...

*3 oktyabr, 2010*

## Səs verək

*7 noyabr 2010-cu il parlament seçkilərinə*

Vətənin ucadan qoy gəlsin səsi,
Fikrimiz ulduzla, ayla görüşsün.
Layiq övladıyla öyünsün Vətən
Yaxşı işlərimiz dillərə düşsün.

Seçim sərbəstliyi duyulsun canda
Səs verib dünyaya bu gün dərs verək.
Vətən bayrağını dalğalandıran
Layiqli oğula, qıza səs verək...

*2010*

## Görə bilməmişəm...

Bənövşə deyildin, kollar gizləsin,
Utancaq, qırmızı bir lalə idin.
Sən yola çıxanda yollar gözləsin,
Qayadan tökülən şəlalə idin.
Durub hər yetənlə girmirdin bəhsə,
Görə bilməmişəm səni, nədənsə.

Öz yolun var idi, sənin öz səsin,
Təkrar etməyirdin sən bir özgəsin.
Mənə sən öyrətdin ilk sevgi dərsin,
Bu ali xanımlıq bəsimdir, bəsim.
İşlərim dolaşıb, düşübmüş nəhsə
Görə bilməmişəm səni, nədənsə.





Sən mənim burnumun dibində idin,
Sən mənim dilimin ucunda idin,
Şirin bir mahnının təbində idin,
Sən mənim eşqimin tuncunda idin,
Nə qışqırmaq lazım, nə salmaq səsə,
Görə bilməmişəm səni, nədənsə.

Bu yoldan piyada ötüb keçmişəm,
Atla ötənlərsə görübdür səni.
Nədənsə gözümü örtüb keçmişəm,
Bir atlı tərkinə götürüb səni,
Nəsə çatışmayıb, o zaman nəsə,
Görə bilməmişəm səni, nədənsə,
Görə bilməmişəm səni, nədənsə...

*1977*

## Vətən... Vətən...

Hər şeyi dərk etməyə,
Sən mənə zənn verdin ki...
Sünbülümə dolu dən
Laləmə çən verdin ki...

Gözlərimə bir heyrət,
Saçıma dən verdin ki...
Sevinci də, qəmi də
Bərabər, tən verdin ki...

...Mən sənə nə verdim, Vətən
Nə verdin, sən verdin, Vətən.
Lalə sevgisi ilə –
Ürəyimdə' güllənib bitən
Vətən, Vətən, ay Vətən...

Göyünə baxıb doymuram,
Doymuram torpağından da,
Havanı udub doymuram,
Gülündən, yarpağından da...

Adamından, ağacından,
Tuturam, dururam, Vətən.
Bütün ömrümü, günümü
Səninlə qururam, Vətən,
Vətən... Vətən... ay Vətən...

*1987*

## Vətəndir

Ürəkdə əksi var sevincin, qəmin
Ürək sevincə yurd, dərdə vətəndir.
Bu torpaq naminə, bu yurd naminə
Çəkilən ağrı da, dərd də Vətəndir.

*17 mart, 2006*





## Qusarçay kimi

*Şair R.Qusarçaylıya*

Şairlik kef deyil, əyləncə deyil,
Hər misra üstündə can verir şair.
Başdan qəlbə salır fikir selini
Ona ürəyindən qan verir şair.

Şairlər hardasa tənhadır bir az,
Vaxtı düşür yaza, ya qışa – bilmir.
Elə Məcnun edir şeiri onları,
Dövrə, cəmiyyətə uyuşa bilmir.

Allahdan vergili olduqlarından,
Şairlər alışıb tez yanan olur.
Hamıya özü tək inandığından
Uşaq tək hamıya aldanan olur.

O "yazan dərdlərin iki rəngi var",
O çəkən dərdlərin rəngi, sayı çox.
Hər kəs çəkə bilməz rəngli dərdləri
Rəngli dərd çəkməkdə onun tayı yox.

O "yazan dərdlərin iki rəngi var,
Ramizə sarıdı, sarıya yaşıl..."
O dərd çəkəndə də gözəl dərd çəkir, –
Onun dərdlərindən gözəllik daşır...

Ürəyini şeirə, sözə kökləyir,
İçində fikirlər göyərir yaza.
Bar verib başını əyən ağactək
Soykökə baş əyir, o yaza-yaza.

Şeir torpağıdır Azərbaycanın
Fikri söz göyərdir, ulduz, Ay kimi.
Özünə bənzəyir yazdıqları da
Axır şeirmizdən'Qusarçay kimi...

*2006*

## Şair aynasıdır əsrin, zamanın

*Şair R.Qusarçaylıya*

Bu sözü, o sözün önünə qoyub,
İçimdə söz dərir, mən söz dadıram.
Bu sözü, o sözün önünə qoyub
Söz-söz soyuluram, söz oynadıram.

Yol gedir, dərədən, düzdən keçirəm,
Baxışdan süzülüb, üzdən keçirəm,
Hər şeyin ilkini, ön başı sözdür,
Buz kimi, köz kimi sözdən keçirəm.

Məni ağladan da, güldürən də söz,
Sözü sözə qoşub, qururam Allah.
Məni bu dünyada, söz öldürəcək
Sözdən yıxılıram, dururam, Allah.

Əvvəl söz yarandı, sonra da sevgi.
Dünya cana gəldi, sözə sevgidən.
Ürəkdə məhəbbət işığı yandı,
Yaydı öz nurunu gözə sevgidən





Hər şey qiymətini söz ilə alıb,
Yüksəlib, ucalıb kama yetibdi.
Hər şeyin əvvəli sözlə başlayıb
Hər şeyin axırı sözlə bitibdi.

Sözdə ilahinin qüdrəti vardır,
Söz ilə alışır hər qəlbin közü
Sözə sevgilidi bütün şairlər
Sevməsə, sevdirə bilməzlər sözü.

Şair aynasıdır əsrin-zamanın,
Kitabın açsanız günün birində.
Rəsmini görərsiz rəngli dünyanın
Onun misra-misra şeirlərində...

*2008*

## Tor

Həyat başdan-başa tordu dünyada,
Adi baxmaq ilə toru bilinməz.
Elə tor qurarlar, tutarlar səni
Bu torun içində zorun bilinməz.

Ötürüb ayaqdan-ayağa səni,
Görərsən ayaqdan tora salarlar.
Bəzən də ayaqdan qaldırıb başa,
Lap başda da tora salarlar.

Əldən-ələ gəzib, torlar önündə,
Vaxt gələr, top kimi tordan keçərsən.
Torlarla üz-üzə olduğun zaman
Həyatı bu tordan aydın seçərsən.

Ceyranı qovdular, tora saldılar,
Tor atıb tutdular Qazan xanı da.
Qalib gəlsə idi ağıllı məntiq
Tora salmazdılar mərd insanı da.

Repressiya toruna salıb tutdular,
Düşünən qəlbləri, duyan başları.
Torların siyasi əlaqəsindən,
Bürüyüb dünyanı məzar daşları.

Torlardır dünyanı dolaşıb-gəzən,
Dünya torlar ilə necə dolubdur.
Vətənin ürəyi – Qarabağın da
Elə tutulması tordan olubdur.

Həyat başdan-başa tordu dünyada,
Adi baxmaq ilə toru bilinməz.
Elə tor qurarlar, tutarlar səni
Bu torun içində zorun bilinməz...

*2005*





## Ürəyimin bir parçası

Öz ürək yükümü hələ çəkməmiş,
Bir dünya yükü də çiynimə düşdü.
Mərd oldum, ürəyim hələ dinməmiş
Həssas düşüncələr beynimə düşdü.

Bir lalə timsallı qızın yolunda,
Ömrümü aylara, illərə verdim.
Bir lalə timsallı qızın yolunda
Qızıl gəncliyimi yellərə verdim.

Çətinlik həyatı öyrətdi mənə,
Bərkidim, saldıqca yola illəri.
Yaxşılıq zəhmətdən doğulur, demə
Yaxşılıq etməsən, elə nə xeyri...

Yaşamaq deyirik, biz bilmək üçün,
Onun mənasını baxırıq, o da,
Yaşayır, günəşin bir parçasıtək
Alışan ocağın alovları da.

Günbəgün çoxalır qayğım, səyim də,
Yazdığım həyatın saf aynasıdır.
Mənim bu laləli şeirlərim də
Elə ürəyimin bir parçasıdır...

*1975*

## Ata, şair baba kimi...

Tanrı verən əvəz olmaz sərvətdi,
İlk şerim, ilk övladım, ilk nəvəm.
Həm taledi, həm bəxtdi, həm qismətdi,
İlk övladım, ilk şeirim, ilk nəvəm.

Gülər qızım ata adı bəxş etdi,
Şeirim mənə şair adın gətirdi.
Pozulmazdı, silinməzdi bu adlar,
Nəvəm Zeynəb baba adın yetirdi.

Üzün gülər, qəlbin tapar rahatlıq,
Hər məclisdə insan kimi sanılsan.
Bundan böyük, bəxtəvərlik harda var
Ata, şair, baba kimi anılsan.

Bütün adlar ötəridi, gedərdi,
Axtarsan da gəzib əliçıraqlı.
Ata, şair, baba kimi adlara,
Ömür bağlı, həyat bağlı, gün bağlı...

*30 sentyabr, 2009*



## Rənglər

Nə söyləyir zülmət gecə qara üzlə,
Nə vəd edir nurlu sabah, dan üzü.
Rənglərlə seçirik yaxşını pisdən,
Rənglərlə toxunub ömrün üz-gözü.

Əzəldən dünyaya insan naxışdır,
Hər insan taleyi üzündə min rəng,
Rəngləri oxudun, yaşamaq asan
Hər rəngdə min savaş, hər rəngdə min cəng.

Həyatdan kənarda qala bilərsən,
Dünyada sən rəngdən-rəngi seçməsən.
Yaşayıb ömür eləmək, çətindi vallah,
Kiməsə, nədəsə güzəşt keçməsən.

Ömürdə hər günüm bir rəngə çaldı,
Yaşadım hər bir şey, qarmadı gözdən.
Yetim rəngləri də duydum dünyada,
Harın pis rənglərdə oxudum üzdən.

İnsansız dünyanın mənası yoxdur,
İnsandır dünyanın ritmi, ahəngi.
Hər insan dünyanın bir rəng baxışı
İnsan taleyidir dünyanın rəngi...

İnsanın dilindən kinayə ilə
O sözün rəngidir ürəyi qıran.
Ağlaya-ağlaya səs deyil çıxan
Ağlaya-ağlaya rəngdi qışqıran.

Rənglər yaxın olub mənə dünyada,
Rəngləri özümə həmdəm bilmişəm.
Rənglərə qarışıb ağlamışam da
Rənglərlə sevinc də, qəm də bölmüşəm.

Baxsan başdan-başa rəngdi bu dünya,
Rəngdə yaşamağın hecaları var.
Rəngləri dünyada düz tutub yığ ki,
Hər rəngdə dünyanın bir çaları var.

Bu boyda dünyanın yeddidir rəngi,
Bu dünya özünü yeddidən rənglər.
İsrafil fitini gözləyir dünya
Ayıltmır dünyanı çalınan zənglər...

*2 fevral, 2006*



# Taleyim nə verdi, onu yaşadım

## Taleyim nə verdi, onu yaşadım

Bir parça çörəkçün getmədim hara,
Ağı – ağ yerində, qarası – qara,
Borcluyam bu hissə, bu duyğulara,
Heç bir vaxt başımı əymədim sara,
Taleyim nə verdi, onu yaşadım.

"Döydü külək məni, döydü qar məni",
Çox vaxt anlamadı nazlı yar məni,
Pullular qapıdan qovdular məni,
Qorudu dilimdə dualar məni,
Taleyim nə verdi, onu yaşadım.

Məni çox məclisdə bəyənmədilər,
Əymək istədilər, əyəmmədilər,
Adımı-sanımı öyəmmədilər,
Mənim kimi söz də deyəmmədilər,
Taleyim nə verdi, onu yaşadım.

Ay altda doğuldum, Buğa bürcündə,
Bu bürcdə doğulub bur çox yazanlar.
Hər misram əngərli buğa gücündə,
Şeirimdə gecələr qərib ozanlar,
Taleyim nə verdi, onu yaşadım.

Bu mənim yazılan alın yazımdı,
Önümdə açılan güllü yazımdı,
Gedən çoxum idi, qalan azımdı,
Bəlkə də bu elə belə lazımdı
Taleyim nə verdi, onu yaşadım...

*2005*

## Şair doğulmuşam...

Dayanıb bu yolun tən ortasında
Çıxımmı dünyadan qaçıb göylərə.
Ruhum məndən əvvəl Tanrı yanında
Ruhum məndən əvvəl uçub göylərə.

Yanıram demədi heç vaxt yananlar,
Hamıya açılmaz şeirli anlar.
Məni başa düşməz şair olanlar,
Şair doğulanlar, məni tez anlar.

Bu səma tanrının şeir dəftəri,
Göylər başdan-başa özü şeirdi.
Şair olanların şeiri sözdü,
Şair doğulanın sözü şeirdi.

Sözümlə ölümsüz ömür qazandım,
Demərəm, bu halım bezdirir məni.
Şair doğulmuşam, göylərin altda,
Göydə uçan ruhum gəzdirir məni...

*2010*



## Əsrin qabarıq şəkli

Hər yerdə pul tələsi,
Düzlük, təmizlik keçmir.
Bu gün yazılan yazı –
Sabah ölür kağızda...

Bax budu əsrimizin,
Ən qabarıq şəkli.
Biganəlik üzündən
Min söz gəzir ağızda.

Təmiz ad yada düşmür
Bu çaxnaşıq dövrdə.
Min sevinc şəhid olur
Hər dərdin yarasında.

Sərsəm mühitə düşdü
Mənim də şairliyim.
Ömür keçdi, gün itdi
Laqeydlər arasında...

*31 may, 2009*

## Çıxır

Dağılır içimə ağrım-əzabım,
Bezikib yaşamaq gözümdən çıxır.
Ruhlarla gəzirəm, cismindən qaçıb
Nə çıxır yenə də özümdən çıxır.

Nəyimə gərəkmiş belə tablaşmaq,
Özünü ayaqlamaq, özünü aşmaq,
Çaşmışam, yaraşmır ta mənə çaşmaq
Nə yazsam, sevirəm sözündən çıxır.

Şeirimdə yol tapdı yolun azan da,
Allahsız yazmadım şeir yazanda,
Gəlib ayağımın altın qazan da
Hərlənib yolumdan, izimdən çıxır.

*2008*





## Kimisən

Vurulub filin, piyadan,
Boş qalan xanə kimisən.
Daha qan ağlayır dilin
Köhnə viranə kimisən.

Ola-ola görünmürsən,
Kiməsə yük, sürünmürsən,
Daldalarda görünmürsən
Real əfsanə kimisən.

Gündüz iş qatır başımı,
Ehtiyac kəsir qarşımı,
Görən yox iç savaşımı
Gecə pərvanə kimisən.

Telman, bax arxaya, önə,
Çox saldın ömrü düyünə,
De kim saldı səni bu günə,
İncitmədin heç kimi sən
Bir az şair, bir az dərviş,
Bir az divanə kimisən.

*2007*

## Dəlilik

Dəlilik qorxaqlıq, axmaqlıq deyil,
Dəlilik vurğunluq, divanəlikdir.
Səni barmaq ilə göstərirlərsə
Bu elə həyatda yeganəlikdir.

Bir boyda, bir rəngdə adam içində
Seçilə bilirsən başqalarından.
Sevəndə yanırsan, yananda sevirsən,
Hamıya pay düşür könül varından.

Heç kəs duya bilmir sən duyduğunu,
Sən dərk edən kimi, sən duyan kimi.
Baxanda heç kəsdən seçilməyirsən
Dəlisən ürəyin oxuyan kimi.

Eşqin seçilirsə, kimdənsə sənin,
İşin oxşamırsa başqa bir işə.
Təcrid olunursan bu adamlardan
Dəlitək düşürsən sən dilə-dişə.

Bir vaxt igidlik də dəli adlanıb,
Qiymətində olub düz-doğru adı.
Əsirlərdən bəri, bu günə kimi
Dəliliklə gəlib Koroğlu adı.

Ürəkdən yanaraq deyilən bir söz
Ən ağır ağrını dəlib deyirlər.
Özü dəli kimi görünən şairin
Şeiri də Tanrıdan gəlib deyirlər.





Dəlilik qorxaqlıq, axmaqlıq deyil,
Dəlilik vurğunluq, divanəlikdir.
Məni barmaq ilə göstərirlərsə
Bu elə həyatda yeganəlikdir.

*31 may, 1993*

## Bulaq üstə...

Bulaq üstdə bir qız gördüm,
Yerimdəcə sehrləndim.
Mən o qızı yalqız görüb
At üstündən yerə endim.

Söz tapmadım, su istədim
Su uzatdı mənə o qız.
Sanki, su yox, sərinlik yox
Bir od atdı mənə o qız.

Gözüm onda, fikrim onda,
Kuzə əldən düşüb sındı.
Üzüm-gözüm qızıl donda
Elə bil ki, qolum sındı.

Baxıb mənə, güldü o qız,
Qolumu tutub göz də vurdu.
Açılmamış güldü o qız
Ürəyində söz də vardı.

Su səhəngi suda sınar –
"Canın sağ olsun" söylədi.
De, heç oğlan da utanar
Getdi, baxıb əl'eylədi.

İllər keçib il üstündən,
Daha at da sürmürəm mən.
Güllər açıb gül üstündən
Daha o qızı görmürəm mən.

Bulaq üstə qız görmüşdüm,
Yanaq lalə, dili baldır.
Bulaq üstə qız görmüşdüm,
Ondan da bu şeir qaldı...

*8 mart, 1977*





## Yaşıl velosipedim var idi onda

Yaşıl velosipedim var idi onda,
Yaşıl bir həvəslə dinib gələrdim.
Yaşıl cığırlarla, yaşıl yollarla
Hər zaman mən onu minib gələrdim...

Yaşıl velosipedim var idi onda,
Yaşıl meşələri seyrə dalardım.
Dinməyib, dinləyib xoş təbiəti
Yaşıllıq qoynunda, oyaq qalardım.

Yaşıl velosipedim var idi onda,
Qızla bulaq başı dolu olardı.
Yaşıl velosipedim gündə nə qədər
Yaşıl bulaq başına yolu olardı,

Yaşıl velosipedim var idi onda,
Qızlar addımbaşı məni pusardı.
Nadinclik eləyib incitdiyimdən
Qızlar velosipedimi daşa basardı...

Yaşıl velosipedim var idi onda,
Yaşıl bir həvəslə dinib gələrdim.
Yaşıl cığırlarla, yaşıl yollarla
Hər zaman mən onu minib gələrdim...

*1964*

## Kənddə toy

Elə ki toy oldu, qız köçdü kənddən
Hamının sevgisi yada düşərdi.
Nə qədər gənc vardı bu böyük kənddə
Hamı məhəbbətdən oda düşərdi.

Süfrəyə çəkilən xörək min adda,
Daha ləziz olub, dada minərdi.
Ortada qartaltək süzən tamada
Xüsusi hörmətə, ada minərdi.

Yerinə yetərdi hər istəyimiz,
Tamada hamının dostu olardı.
Şabaş çıxarmaqdan pencək cibimiz
Sürtülüb, sürtülüb rəngi solardı.

Elə ki toy bitdi, biz sözlü-sovlu,
Nədən danışardıq, nələr deyərdik.
İşə bax, illərlə donan sükutu
O gün "sevirəm"lə güllələyərdik...

*1977*

## Başqa

Gizli-şirin əzab çəkdi bu ömür,
Mənimçün gün doğmaz, üzümdən başqa.
Gözəl izi ola bilməz dünyanın
Sən salıb getdiyin izindən başqa.

Bir tikə sevgili söz dilimdə kabab,
Sevəndə yada düşmür bu günah-savab,
Bunu bilə-bilə gətir buna tab,
Söz olmaz, sevirəm sözündən başqa.

Əgər keçirilsə, gözlər sərgisi,
Gözləri mat qoyar, gözlərin əksi
Alovladar içimdə duyğunu, hissi
Bir göz layiq olmaz, gözümdən başqa.

Bu ömür sonadək yanar yolunda,
Gözlərim nur saçan fanar yolunda,
Kim səni bu qədər anar yolunda,
Gülər Təravətin özündən başqa...

*2008*

## Bax onda duyarsan...

Çənənin altına qoyub əlini,
Dikərsən gözünü yollara sarı.
Yadına salarsan bir gecə məni
Yadına salarsan bir gecə, barı.

Dolanar göyləri sənin xəyalın.
Yavaşca sürüşər Ayın üzündən.
Dəyişər o zaman, sənin əhvalın
Göz yaşı tökülər, bəlkə, gözündən.

Əlini qabarmış sinənə basıb,
Mənim əllərimi axtardın, bəlkə.
Xatirə əlini yollara uzat
Yollarda taparsan sən məni, bəlkə.

Xatirə yükünü atıb çiyninə,
Gedərkən dərindən çəkərsən bir ah...
Yarpaqlar göz yaşı tökər üstünə
Sənlə vidalaşar o tənha qovaq.

Sənsə diksinərək, bu vaxt yerindən,
Deyərsən tanıdım, gözümü burax.
Dönərsən, özünü tənha görərsən
Baxarsan gözünü yaş tutub, ancaq.

Həsrət qollarını açıb bu ara,
Səni öz qoynuna səsləyər, gülüm.
Sən isə baxarsan, uzaq yollara
Məni düşünərsən, bəlkə, nə bilim...

Bax onda duyarsan, gülüm, həsrəti,
Görüş yerimizdən çıxıb gedərsən.
Min cür əzab çəkmiş ilk məhəbbəti
Həsrətin əliylə əzizləyərsən...



# *Gülərsiz Gülərli nəğmələr*

## Gülərsiz Gülərli nəğmələr

Daha ürəyimi söz də ovutmur,
Mən nəyə lazımam ta bu yaşımda.
Toxtaqlıq verməyir təsəllilər də
Dərddi ürəyimdə, qəmdi başımda.

Mənə Gülərimdi şeir yazdıran,
Təbim sönüb gedər, ölərdi artıq.
Hər zaman gözümdə Gülər qızımdı,
İlhamımın adı Gülərdi artıq.

Qoymadı yaşayıb, bir gün görməyə,
Əvəzsiz gül ömrün bir an eylədi.
Fələyin mənimlə nəyimiş qəsdi,
Yazda gül bağımı viran eylədi.

Əsmər Gülər qızım getdi dünyadan,
Tutduğun öz yaxan, tutan əlimdi.
Tərifsiz, təltifsiz ən yaxşı şeirim
Gülərsiz Gülərli nəğmələrimdir...

## Dərdim ən gözəl şeirdi...

Dərdim ən gözəl şeirdi,
Ürəyimə girən' qədər.
Sevincimə ağlayan yox,
Qəmimə sevinən qədər.

Yaşadığım bu ömürdə
Gördüyümü gördüm artıq.
Ömrüm-günüm yağış içrə
Başım üstündə göy yırtıq.

Əsir, kəsmir qəm küləyi,
Can üşüyür, qəlbdə təlaş.
Necə əl verim sevincə
İçimdə dərdlərlə savaş...

Ahım dumana çevrilib,
Dərdin başına oturub.
Həyat sarı rəngli payız
Qəmin qışına oturub.

Dərdiyim qəmin gülüdü,
Başımda kədər külüdü,
Sevə-sevə gözlədiyim
Hər ümid yaşıl ölüdü.

Dərdim ən gözəl şeirdi,
Ürəyimə enən qədər.
Sevincimə ağlayan yox
Qəmimə sevinən qədər...

*10 mart, 2009*



## Mənə qurut göndər bənövşələri

Qurudub göndərmə, bənövşələri,
Ramiz Qusarçaylı
Qurudu ilk pöhrəm, soldu bənövşəm,
Mənə qurut göndər bənövşələri...
Bu yazda heç bir şey oldu bənövşəm,
Bənövşə şeirinin qəm guşələri
Mənə qurut göndər bənövşələri...

Gülərin toyunda oxudun şair,
"Qurudub göndərmə, bənövşələri".
Bənövşə Telmana bir ana səsi
Bənövşə Gülərə qəm düymələri
Mənə qurut göndər bənövşələri...

Fəsil gəlib keçər, yazı görünməz,
Çoxu çoxdan keçər, azı görünməz,
Alına yazılan yazı görünməz,
Heç kəs taleyindən razı görünməz
Mənə qurut göndər bənövşələri...

Başıma kədərin dumanı gələr,
Yaxşı çıxıb gedər, yamanı gələr,
Hər şeyin vaxtı var, zamanı gələr,
Adamın çox şeyə gümanı gələr
Adam dinə gələr, imana gələr
Mənə qurut göndər bənövşələri...

Çəkilməz bu nisgil, ayaz gözümdən,
Kədər aşıb-daşar dayaz sözümdən,
Elə düşübdü ki, bu yaz gözümdən,
Küsülü gəzirəm özüm özümdən,
Asılıb bu Samur, Araz gözümdən,
Mənə qurut göndər bənövşələri...

Çıxıram yenə də yaza, ölmürəm,
Qane də oluram aza, ölmürəm,
Alıram hər cürə cəza, ölmürəm,
Gəlir də başıma qəza, ölmürəm,
Qurumuş bənövşə öldürər məni,
Mənə qurut göndər bənövşələri
Mənə qurut göndər bənövşələri...

*7 aprel, 2009*





## Nə yaxşı əlimdədi...

Doğmalıq görmədim, kimdən, kimsədən,
Həmişə özümü sandım köməksiz.
Ağrıyır ürəyim, qəmdən-qüssədən
Alışdım köməksiz, yandım köməksiz.

Əlləşib vuruşdum, özümlə özüm,
Kədər nəfəsini aldı içimdə.
Dünyaya deyəsi nə qədər sözüm
Şeirə çevrilməyib, qaldı içimdə.

Qədir bilməyənlər xətrimə dəydi,
Ömrü özümünkü edə bilmədim.
Elə düz yoluma daş tulladılar
Odur ki, qabağa gedə bilmədim.

Ən gözəl günlərim daş-qalaq oldu,
Hətta qaldım susuz, qaldım yeməksiz.
Hər yerdə, hamıya xeyrim dəydi
Nəyi almışamsa, aldım köməksiz.

Kəsmir ayağını qapımdan kədər,
Bağçamda gül əsir, yenə qəm hələ.
Qalmazdı sabaha, inamım, ümidim
Nə yaxşı əlimdədi bu qələm hələ...

*2008*

## İnsanlar boğulur

Hamı olubdu baş-ayaq
Tamahına düşüb əsir
Pozulub nizam-tərəzi
Hamı bir-birindən kəsir.

Dünya qızmar bir təndirdi,
Adamlar da küt-kündəsi.
Cənnətdən qovulub gəlib
Allahın Adəm bəndəsi.

İnsanlar boğulur içində
İnsanlar içində əsirdi.
Heç bir ah Allaha çatmır
Bu da belə bir əsrdi...

*2003*





## "Siz məni göstərin televizorda"

Məndən müsahibə, hazıram alın,
Cavabsız suallar cavabı mənəm.
Ağrıyan dərdlərin əzabı mənəm,
Bütün günahların, cavabı mənəm
"Siz məni göstərin televizorda" .

Şahdağ, Babadağam, harayam, hayam,
Şirvanşah, Narınqala, Çıraqqalayam,
Hər dağa mənayam, mənaya dağam,
Gərək haqq səsimi aləmə yayam,
"Siz məni göstərin, televizorda".

Deməyin döşünə bu döyür belə,
Nə yaman özünü bu öyür belə,
Bil, Telman nə üçün tövşüyür belə,
Vətənçün ürəyim göynəyir belə,
"Siz məni göstərin, televizorda".

Xocalı soyqırımı, yanır yadımda,
Bu duman adında, bu çən adında,
Bir parça torpağam, vətən adında,
Vətəni göstərin televizorda,
"Siz məni göstərin televizorda."

Mən söz yazmadım ki, olacaq xeyrim,
Dünyanın təravət yazısı şeirim,
Dünyanın tilsimi, həm sirri mənəm,
Dünyanın təravət şairi mənəm,
Çoxu baş itirib bu vurhavurda
"Siz məni göstərin televizorda..."

## Səhvdən sonrakı təəssüf

Yanmağım – odlanmağımdı,
Özümlə üz-üzə dayanmağımdı –
Səhvdən sonrakı təəssüfüm.

Nəticəyə, qərara gəlməyimdi,
Tanımağımdı, bilməyimdi –
Səhvdən sonrakı təəssüfüm.

Lalələri dərəndə, ehtiyatlı olmağımdı,
Kiminçinsə, kimin acığına,
Oyaq qalmağımdı...
Bir ömrün bitməyən nağılıdı,
"Müsəlmanın sonrakı ağlıdı" –
Səhvdən sonrakı təəssüfüm.

Ölümün əlindən aldığım vaxtdı,
Çiynimdə el yükünü daşımağımdı,
Səhvlərimi düzəltməyə aldığım vaxtdı,
Başa düşərək yaşamağımdı
Özümdən böyük qəbahətim
Özümdən böyük heyrətimdi...
Təzədən nifrətim, təzədən məhəbbətimdi –
Səhvdən sonrakı təəssüfüm...

*24 fevral, 1982*





## Arası

Zaman ötür, vaxt qarışır,
Çölümlə özüm arası.
Gündə ölüb-dirilirəm
Fikrimlə sözüm arası.

Sən həmişə önümdəsən,
Ayımdasan, günümdəsən,
Mənim səsim ünümdəsən,
Baxışla gözüm arası.

Ömür hər addım zor görür,
Daha gözlərdə tor görür,
Gecə qaranlıq gor görür
Getdi gözümün qarası.

Bunun həyatdır harası,
Şəkər-nabatdır harası,
Könlünə yatdı harası,
Əsil yaşamaq yeridir,
Sevinc ilə qəm arası...
Şairin öldüyü yerdir
Qələmlə kağız arası...

*2007*

## Adamlar

Gəlir-gedir, dünya nədir bilməyir,
Hər bir işdə, təhərsizdir adamlar.
Vuruşdadır ağlı ilə tamahı
Taleyindən xəbərsizdir adamlar.

Ulduzları gah parlayır, gah sönür,
Buna görə haldan-hala düşürlər.
Gah görürsən hərəkətsiz dayanır
Gah qabağa, gah da dala düşürlər.

Biri gülür, biri qaçır, ağlayır,
Hər adamın bu dünyada öz küncü.
Biri açır, biri qapı bağlayır
Hər adamın dünyada var öz bürcü.

Hər bir adam, öz ulduzu altında,
Heç özündən asılı deyil etdiyi,
Ulduzları Allahının əmrində
Tanrıdandı hər məqsədə yetdiyi.

Gəlir-gedir, dünya nədir bilməyir,
Hər bir işdə təhərsizdir adamlar.
Vuruşdadır ağlı ilə tamahı,
Taleyindən xəbərsizdir adamlar...





## Sən mənə baxanda...

Sən mənə baxanda xoşbəxtsən,
Mən də bir başqasına baxanda...
Sən mənə baxıb təsəlli tapırsan,
Mən də bir başqasına baxanda...

Halbuki ikimizin də dərdi var,
Heç birimiz, dərdsiz deyilik fəqət,
Heç dərdsiz varmı görən bu dünyada?!

...Bəlkə də belə lazımdır, yaşayırıq da...
Birdə həmişə yağış yağmır ki,
İldırım çaxanda... sən mənə baxanda
xoşbəxtsən,
Mən də bir başqasına baxanda...

*22 oktyabr, 1981*

## Dünya sığallanır dərd havasıyla

Dünya sığallanır dərd havasıyla,
Udur döyüşləri'mərd davasıyla.
Ürəklər tapdayır, gözə toz atır,
Taledə öz sınıq arabasıyla.

Ömür budağından düşən günlərin,
Üzünə baxan yox laqeydlikdən.
Hər kəsin içində düzlük ağrısı
İnsan əzab çəkir gül-gözəllikdən.

Nə pulla, nə malla alına bilməz,
İnsan mərifəti və qanacağı.
Sirdi, heç bir canlı öyrənə bilmir
Nə vaxt sona yetir, iç yanacağı.

Dünyanı qabağa ağıl aparıb,
Ağılla ucaldıb elmdə qala.
Paxıllıq ucundan, tamah ucundan
Bəşər çəkib daim ağıldan bəla.

İnsan zülm əhlidir, qəmə sevgili,
İnsan sevinc gəzir, dərdindən ötrü.
İnsan tərif edir, düzü, hər yerdə
Amma heç nə etmir mərdindən ötrü.

Dünya sığallanır, dərd havasıyla,
Udur döyüşləri mərd davasıyla.
Ürəklər tapdayır, gözə toz atır
Bu tale bir şıltaq qız ədasıyla.

*28 fevral, 2010*



# Bəlkə bir də görüşmədik

## Bəlkə bir də görüşmədik

Bəlkə bir də görüşmədik,
Bir də gəlmədik üz-üzə.
Diqqət yetir, hər şeirimə
Qiymət qoy dediyim sözə.

Sabah onu, nə gözləyir
Heç kəs indidən deyəmməz.
Bu gün bəyəndiyini bəzən
Sabah görərsə bəyənməz.

Kim nə bilir başımıza,
Sabah bizim nə gələcək.
Taleyimiz ağlayacaq –
Ya ki üzümüzə güləcək...

Üstündə durduğumuz yer
Bizi gec-tezi alacaq.
Bizdən ancaq bu dünyada
Dediyimiz söz qalacaq.

Bəlkə, bir də görüşmədik
Bir də gəlmədik üz-üzə.
Diqqət yetir hər şeirimə
Qiymət qoy, dediyim sözə.

*2007*

## Ömrün yarı sual...

Yanına getməyə varmı bir kəsin,
Sənə kömək edib, ó dayaq olsun.
Baxıb öyünəsən zirvə qarına
Arxanda yıxılmaz, qaya-dağ olsun.

Hörmətin saxlayıb, xətrin istəyib,
Varmı gözün dolsa, gözünü silən.
Hər an səni duyub, xətrin istəyib
Varmı sənə yanan, qədrini bilən.

Yaşarıq xoş qılıq, xoş niyyət üçün
İnsanın insana ərki nədədir?
Görən nə lazımdı, şəxsiyyət üçün.
Bəs görən həyatın dərki nədədir?

Həyatın qoy gizli sirri yaşasın
Şəxsiyyət dalında millət dayansın
İtməsin etiqad, duza-çörəyə
Hər bir şey, ağılla nura boyansın.

Yazılı dəftərdir, hər qəlb əzəldən
Yazılı dəftərdir, oxuya bilsən.
Yaxşını yamandan ayırıb seçib
Hər şeyi dərk edib, fərq qoya bilsən.

Hər dərdin cavabın açan tapılmaz
Baxıb ağrısan da, qaçqına, aca.
Taleyin hökmündən, qaçan tapılmaz
Ömrün yarı sual, yarı tapmaca...

*2 oktyabr, 2010*



## Həyat mənalıdı...

Demə ki, həyatın mənası yoxdur,
Çiynində çətinlik daşınan qədər.
Gərək yaşamağın dilin biləsən
Həyat mənalıdır yaşanan qədər.

Bil ki, bu həyatın iki üzü var,
Birisi gizlidir, birisi aşkar.
Aşkar üzündə həyat yoxdursa,
Gizli sifətində mütləq həyat var.

Fikrini cəm elə, qəti addım at,
Həyat hər bir zaman qətilik sevir.
Elə şeylər var ki, dillə deyilmir,
Gizlilik xoşlayır itilik sevir.

Gizli günahlar var, müqəddəs, əziz,
Aşkar söylənsə olluq yanası.
Gizlilik üstündə durubdur ömür
Gizli olmaqdadır onun mənası.

Daim qiymətli şey gizlində olub,
Daim əziz şeyi, gizli qoyublar.
Bizdən əvvəlkilər, keçən bu yolu
Bir də keçək deyə miras qoyublar.

Demə ki, həyatın mənası yoxdur,
Çiynində çətinlik daşınan qədər.
Gərək hər bir şeyin dilin biləsən
Həyat mənalıdır yaşanan qədər...

*9 may, 1993*

## Həyata qayıtmaq istəyir o qız

Bezdirib gizlicə görüşlər onu,
Gizli görüşlərdə öpüşlər onu,
Bezdirib, bezdirib bu işlər onu
Keçirdiyi günü pisləyir o qız,
Həyata qayıtmaq istəyir o qız.

Bilməyir ömrünü hardan başlasın,
Ağacdan başlasın, daşdan başlasın,
Qurudan başlasın, yaşdan başlasın,
Hər şeyi dərk edir, hiss edir o qız,
Həyata qayıtmaq istəyir o qız.

Baxır əli körpəli hər bir qadına,
İstəyir ki "ana" desinlər ona,
Yığışıb bir isti ocaq başına,
Alışmaq istəyir kişi oduna
Özünü daxildən səsləyir o qız
Həyata qayıtmaq istəyir o qız

Qəlbində çox yerə bölmüş sevgini,
Ağlamış sevgini, gülmüş sevgini,
Bəlkə də yoxalıb, ölmüş sevgini
Təzədən odlamaq istəyir o qız,
Həyata qayıtmaq istəyir o qız.

İndi çox görüşə o nida deyir,
Ötən günlərinə əlvida deyir,
Öldürəcək məni bu sevda deyir
Dəlitək öz-özünə gülümsəyir o qız
Həyata qayıtmaq istəyir o qız.



Daha bilməyir ki, bu həyat onu,
Qəbul edəcəkmi, etməyəcəkmi?
Bir vaxt birgə olan oğlanlar onu
Rahat buraxacaq, tərk edəcəkmi?
Heç özü də bilmir, neyləyir o qız,
Həyata qayıtmaq istəyir o qız.

Baxıram o qıza, yanır ürəyim,
Yansa da əlimdən bir iş gəlməyir.
O qızı həyata qaytarmaq gərək,
O qızı sevməklə iş düzəlməyir
Həyata qayıtmaq istəyir o qız

*18 fevral, 1990*

# Sevmək evlənmək deyil

Sevdim, sevən gündən də
Bəxtimə lalə düşdü.
Sevdin sevgi yoluna
Sevən bir tale düşdü.
Hər ikimizin gözündən
Birlikdə jalə düşdü,
Sevmək evlənmək deyil –
deyil hələ əzizim...

Sevmək, tikan kolundan
Çiçək dərmək kimidir.
Sevmək bu sirr dünyaya
Bir də gəlmək kimidir.
Bəs bilmirdin bunu sən
Sevmək, evlənmək deyil –
deyil hələ əzizim...

Sevəndə elə olur,
Keçənmirsən hədləri.
Sevginin qatilidir
Dostluq məhəllələri,
Hörmətin pərdələri.
Ata ilə övladın,
Ana ilə övladın
Ailə sərhədləri
Bəs bilmirdin bunu sən,
Sevmək, evlənmək deyil,
deyil hələ əzizim...





Bu yol daşlardan keçir,
Quru yaşlardan keçir,
Qorxulu tük ürpədən
Bərk təlaşlardan keçir.
Bəs bilmirdin bunu sən,
Sevmək, evlənmək deyil –
deyil hələ əzizim...

Sevmək – evlənmək olsa
Leyli də evlənərdi,
Məcnun da evlənərdi
Sevmək, evlənmək olsa
Bu dünya şənlənərdi,
Sevmək – evlənmək deyil –
deyil hələ əzizim...

Yanıb qovulduqca biz,
İçində fikrin, hissin,
Süründük gizli-gizli,
Mən sənə dizin-dizin,
Sən mənə dizin-dizin,
Yenə də bu həyatda
Gətirmədi bəxtimiz,
Sevmək, evlənmək deyil –
deyil hələ əzizim –
deyil hələ əzizim...

*13 avqust, 1981*

## İki həftə

İki həftə xəstəxanada yatdım,
Bir qız hər gün qoluma iynə vururdu.
İki həftə xəstəxanada yatdım
Bir qız hər gün qulluğumda dururdu,

Həkim qızın gül çöhrəsini görüb
Xəstəliyim tamam yaddan çıxmışdı.
Xəstəxananı görüş yeri bilib
Eşq alovu ürəyimi sıxırdı.

Qüvvətliydi qız vurduğu iynələr
Ağlamaqdan arsız-arsız gülürdüm.
Qız göz vurub, çox igiddi bu oğlan
Baxışıyla çalıb məni, gülürdü.

Qız baxırdı, mən baxırdım, baxışlar
Düşüb qəlbə eşq olub alışırdı.
Qız baxırdı, mən baxırdım, baxışlar
Bir-biriylə səssizcə danışırdı.

O qız ilə bir elə danışmadım,
Aramızda "elçi" şeirim oldu.
Şeiri aldı, baş əydi, danışmadı
Sevindim ki, qəlbində yerim oldu.

Başa yetdi iki həftə xəstəlik
Ürəyimi qoyub burda gedirdim.
Məni qızdan ayırdılar, üstəlik
Heç özüm də bilmirdim nə edirdim.



Düzü, ordan ayrılanda bilmədim
Mən mi qızda, qız mı məndə qalıbdı.
Bir də fikirdən ayılanda gördü
Vərəq üstə bu şeir qaralıbdı...

*1979*

## Bu sevgi nədir, ay Allah

De görüm, bu sevgi nədir, ay Allah,
Gətirdin başıma, saldın qəlbimə,
Hamı əlac üçün sənə əl açır
Bəs mən əlac üçün əl açım kimə.

Nifrət etdirən də, sevdirən də sən,
Bunu kimə desən, ağıla gəlməz.
Bu sirri bir kəsə açıb söyləsən
Heç bəlkə, salama, sağola gəlməz.

Mənə bəxş etdiyin bu sevgiylə sən,
Niyə məni qurudub, əzab verirsən.
Mənim əlim ilə onu ağladıb
Heç nə olmamış tək gülümsəyirsən.

O mu günahkardı, mən mi günahkar,
Bir dərd çəkdirirsən hər ikimizə.
Yanıb qovruluruq şirin əzabla
Görüb dəli deyir baxanlar bizə.

O xahiş eləyir, yanır-yalvarır
Deyir ki, sən Allah, yaxamdan əl çək.
Mən də bacarmıram özüm-özümlə
Şirin bir əzabla sevir bu ürək.

Pozmusan sən onun sakitliyini,
Neyləsin o gözəl, de, bu dünyada.
Sındırıb o qızın sən ürəyini
Hətta dinc qoymursan belə, röyada.

Bəlkə də yersizdi bu dediklərim,
Belə gəlməliymiş qış və yazımız.
Ömrümüz heç belə, doğulmamışkən
Göydən hazır gəlir alın yazımız...

*1992*





## Tərslik nəğməsi

Sevdik, bu sevgini deyə bilmədik,
Öyünməli ikən, öyə bilmədik,
Vüsal libasını geyə bilmədik,
Sevgi şirnisini yeyə bilmədik,
De görüm, araya kimlər girdi bəs,
Sən də tərs, mən də tərs, sevgimiz də tərs.

Ən gözəl qızı da sevmək çətinmiş,
Sevib-sevilənlər əsil mətinmiş,
Heç vaxt xatirəmdən silinməz bu iş,
Məni şair edən məhəbbətimmiş,
Bu qədər hicran da, yanmaq da əbəs,
Sən də tərs, mən də tərs, sevgimiz də tərs.

Baxıram düzlərə, lalə görürəm,
Lalə yanaqlarda jalə görürəm,
Qüssəni saxlayır, sevinc bölürəm,
Dərib lalələrdən çələng hörürəm,
Bəlkə də bu illər, qəsdən gəlib nəhs,
Sən də tərs, mən də tərs, sevgimiz də tərs.

Sən mənə ay lalə, daim gərəksən,
Mənsiz bu dünyada, kimsəsiz-təksən,
Tək olsan, sevgidə tez enəcəksən,
Bir olsaq, sevgidə yüksələcəksən,
Bizim tək sevməyib, sevməz də bir kəs,
Sən də tərs, mən də tərs, sevgimiz də tərs.

*1981*

## Şeirində yoxdursa...

Şerində yoxdursa bir ovuc torpaq,
O ovuc torpaqda açmırsa lalə,
O ovuc torpaqda çağlayıb bulaq,
Duyulmursa ondan bir şəhid nalə,
Vətən şeiri deyil, yurd şeiri deyil...

Şeirində yoxdursa bir ovuc torpaq,
O ovuc torpaqda yoxdursa ürək,
O ürək içində yoxdursa sevgi,
O sevgi içində yoxdursa yanğı,
Vətən şeiri deyil, yurd şeiri deyil.

Şeirdə yoxdursa bir ovuc torpaq,
O torpaq içində yoxsa yaşamaq,
Yaşamaq naminə yoxdursa dözüm,
O dözüm içində yoxdursa ölüm,
Vətən şeiri deyil, yurd şeiri deyil.

Telman, köç dünyadan, çevril torpağa,
Dur düşmən önündə keçilməz dağa,
Qoyma yağı düşmən girsin torpağa,
Hər yerdə, hər kəsin həyan xeyri ol,
Sən Vətən şeiri ol, sən yurd şeiri ol...
Sən torpaq ol yaşa, sən yurd ol yaşa...

*2009*





## Utanır təbiət duyub fikrimi

Yolların üstünü qar örtüb tamam,
Fikirlər qarışıb saçların kimi.
Səni gözləyirəm durub nigaran,
Köksümün üstünə sıxıb əksini.

Təbiət üzüağ çıxıb qarşıma,
Düşündüm görüşə gələrsən, ay qız.
Əllərim toxunar şəvə saçına
Həsrətlə qalmışam burada yalqız.

Mən qışın gülünə inandım niyə,
Sən demə, bu ağlıq alladıb məni.
Havada qaralıb, baxıram göyə,
Utanır təbiət duyub fikrimi...

*1978*

## Ürəyim

Ürəyim, ay mənim yanan ürəyim,
Səni dərdə salan, o gözəl qızmı?
Qızları bir bacı sanan ürəyim
Bu əhdini pozan o insafsızmı?

Ürəyim, ay mənim dinməz ürəyim,
Ağlamaq ki sənə çoxdan yad olub,
Sevgini, əzabı bilməz ürəyim,
İndi həsrətdənmi gözlərin dolub.

Ürəyim, ay mənim, həssas ürəyim,
Hamının dərdini gözündən bildin.
De, niyə tutmusan qəm-yas ürəyim,
O səni duymadı, niyə sevirdin...

Ürəyim sevirsən, elə sevirsən
Ömürlük bağlısan, o atsa birdən.
Necə tapıb onu, qoparım səndən –
Bilmirəm sən osan, yoxsa o sənsən...

*1974*



# MÜNDƏRİCAT

**Ön söz** ........ **3**

**Ürəkdir sevdirən**

Mənim şairliyim ........ 9
Möcüzə ........ 10
Şeir kitabım ........ 10
Şerim ........ 10
Ürəkdir sevdirən ........ 11
7 sözün şairiyəm ........ 12
Fikrimdə bir şair var ........ 13
Ömür başdan-başa ........ 14
77... 7... 7 ........ 14
Sənə qurban ........ 15
Qoşa işıq ........ 16

**Vətən torpağında, xalqın içində**

Vətən torpağında, xalqın içində ........ 19
Əsgər libasını soyunan kimi ........ 20
Polis poqonları ........ 21
Mən əsgərəm indi, ana ........ 21
Anama ........ 22
Qəlbim ........ 22
Ən qorxulusu ........ 23
Deyil... ........ 23
Mən ömrümə bilə-bilə ........ 24
Yaşamaq çətindi ........ 25
Sual ........ 26

**Kimdi bu dünyada adam?**

Kimdi bu dünyada adam? ........ 29
...7 gündü insan ömrü ........ 30
Naqafil iş ........ 31
Tapan ağıllıdı... ........ 33
Allahdan aşağı, məndən yuxarı... ........ 34

Bu gecə ........ 35
Etiraf ........ 37
Qoy özümüz tək yaşayaq ........ 38
Fırlanır... ........ 39
Yerin var həmişə sənin ürəkdə ........ 40
Dəniz yaxınlığında kəndimiz ........ 42

**Vətən elə oğul istəyir indi**

Vətən elə oğul istəyir indi ........ 45
Səs verək ........ 46
Görə bilməmişəm ........ 46
Vətən... Vətən... ........ 47
Vətəndir ........ 48
Qusarçay kimi ........ 49
Şair aynasıdır əsrin, zamanın ........ 50
Tor ........ 51
Ürəyimin bir parçası ........ 53
Ata, şair baba kimi... ........ 54
Rənglər ........ 55

**Taleyim nə verdi, onu yaşadım**

Taleyim nə verdi, onu yaşadım ........ 59
Şair doğulmuşam... ........ 60
Əsrin qabarıq şəkli ........ 61
Çıxır ........ 62
Kimisən ........ 63
Dəlilik ........ 64
Bulaq üstə... ........ 65
Yaşıl velosipedim var idi onda ........ 67
Kənddə toy ........ 68
Başqa ........ 69
Bax onda duyarsan ........ 69

**Gülərsiz Gülərli nəğmələr**

Gülərsiz Gülərli nəğmələr ........ 73
Dərdim ən gözəl şeirdi... ........ 74
Mənə qurut göndər bənövşələri ........ 75



Nə yaxşı əlimdədi... ........ 77
İnsanlar boğulur ........ 78
"Siz məni göstərin televizorda" ........ 79
Səhvdən sonrakı təəssüf ........ 80
Arası ........ 81
Adamlar ........ 82
Sən mənə baxanda... ........ 83
Dünya sığallanır dərd havasıyla ........ 84

**Bəlkə bir də görüşmədik**

Bəlkə bir də görüşmədik ........ 87
Ömrün yarı sual... ........ 88
Həyat mənalıdı... ........ 89
Həyata qayıtmaq istəyir o qız ........ 90
Sevmək evlənmək deyil ........ 92
İki həftə ........ 94
Bu sevgi nədir, ay Allah ........ 95
Tərslik nəğməsi ........ 97
Şeirində yoxdursa... ........ 98
Utanır təbiət duyub fikrimi ........ 99
Ürəyim ........ 100

Şərq Qərb
1986-cı ildən

"Şərq-Qərb" Nəşriyyat evində çapa hazırlanmışdır

Buraxılışa məsul: *Rasim Müzəffərli*

Texniki redaktor: *Rövşən Ağayev*

Kompyuter səhifələnməsi: *Yeganə Əsgərova*

Üz qabığının dizaynı: *Elşən Qurbanov*

Korrektor: *Pərinaz Səmədova*

Çapa imzalanmışdır 25.07.2011.
Formatı 60×90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 6,5.
Sifariş N167. Tirajı 500.

"Şərq-Qərb" Nəşriyyat evinin mətbəəsində çap olunmuşdur
AZ 1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 370 68 03; 374 83 43
Faks: (+99412) 370 68 03; 370 18 49
www.eastwest.az



**Telman Ağababa oğlu Müseyibov**

Telman Gülər Təravət 7 may 1956-cı ildə Xaçmaz rayonunun Uzunoba kəndində anadan olub. 7-ci sinifdə oxuyarkən "Bahar" adlı ilk şeirini yazıb. "Naməlum məzar" adlı şeiri isə ilk dəfə mətbuatda çap edilib. Bir çox şeirləri "Sənət", "Ədalət", "Dostluq", "Mübariz keşikdə" qəzetlərində və "Ay işığı" almanaxında dərc olunub.

Ailəlidir, dörd övladı var.

9 789952 346299

Şərq Qərb

1986-cı ildən